# Qəbələyə uçuşlar davam etdiriləcək



"Azərbaycan Hava Yolları" (AZAL) fevralın 17-dən etibarən Bakı-Qəbələ marşrutu üzrə müntəzəm reysləri yerinə yetirməyə davam edəcək.

Redaksiyamıza verilən məlumata görə Qəbələyə reyslər cümə və bazar günlərinə təyin olunmuşdur.

Bakıdan Qəbələyə uçuş saat 16:30-da, Qəbələ Beynəlxalq Hava Limanına (GBB) enmə - saat 17:25-də olacaqdır. Qəbələdən isə uçuşun saat 18:15-də, Heydər Əliyev Beynəlxalq Hava Limanına enmənin - saat 19:10-da təşkil edilməsi nəzərdə tutulmuşdur.

Daxili istiqamətlər üzrə aviabiletlərin qiyməti Tarif Şurası tərəfindən təsdiq olunub. Bakı-Qəbələ marşrutu üzrə bir tərəfə aviabiletin qiyməti 48 manat müəyyən edilib.

*"Qəbələ".*

# 2017-ci ilin ilk sərgisi

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi 2017-ci ilin ilk maraqlı sərgisini təşkil etmişdir. Bu materiallar içərisində misdən hazırlanmış camlar, misdən-tuncdan bəzəklər, müxtəlif formalı tunc çəki daşları, əqiq muncuqlar, şüşə bilərziklər, sümükdən hazırlanmış iynə qabları, düymələr, üzüklər, bıçaq dəstəkləri, gildən düzəldilmiş iy başlıqları və s. daha diqqətçəkən və valehedici sənət nümunələridir.

Müxtəlif illəri əhatə edən bu nümunələri görmək istəyən hər bir kəsi muzeyimizə dəvət edirik.

**İlhamə SEYİDOVA,**
**muzeyin əməkdaşı.**

# Hörmətli oxucular!

## "Qəbələ" qəzetinin reklam xidməti sizinlədir

Siz cüzi müqavilə qiymətləri ilə böyük tirajla çap olunan və rayonun bütün yaşayış məntəqələrinə yayılan, muzeylərə, kitabxanalara, Bakı şəhərində ayrı-ayrı idarə və müəssisələrə, abunəçilərə göndərilən qəzetin

**reklam xidmətindən istifadə edə bilərsiniz**

«Qəbələ»nin səhifələrində övladlarınızın, yaxınlarınızın, dostlarınızın ad günlərini və əlamətdar günlərini təbrik etmək Sizə böyük şərəf və duyğu gətirə bilər.

Qəzetdə ev alqı-satqısı, dəyişdirilməsi, sənədlərin itməsi və ya tapılması, digər məsələlər barədə elanlar da dərc olunur.

**TİCARƏT MÜƏSSİSƏLƏRİ, ŞİRKƏTLƏR!**

Məhsullarınızın satılması, daşınması, bu və ya digər işlərin görülməsi, habelə katirovka sorğularının dərc olunması barədə reklamları və elanları dərc etməklə də qəzet Sizin xidmətinizdədir.

**İstədiyiniz vaxt gəlin, zəng edin:**

**Ünvanımız:** Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
**Telefonlar:** 5-19-14, 5-15-56, Mob: (050) 671 06 94.
**Elektron ünvanımız:** gabalanews@mail.ru

*Əl işdən soyumaz, ürək arzudan...*

**QƏBƏLƏ**

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

# qəzetinə

**2017-ci il üçün abunə yazılışı davam edir.**

**İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.**

*Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyada nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.

# Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi 2017\2018-ci tədris ili üçün DİN-in Polis Akademiyasınaəyani təhsil üzrə kursantların qəbulu ELANI

Azərbaycan Respublikası DİN-in Polis Akademiyasına qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (cari ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.

Abituriyentlər DİN-in xüsusi-həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma—6 dəfə; qaçış 100 metr məsafəyə—15 saniyə və 1000 metr məsafəyə—4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması—18 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması—18 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması—18 dəfə, qaçış 100 metr məsafəyə—19 saniyə və 1000 metr məsafəyə—5 dəqiqə 30 saniyə).

Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az internet saytında yerləşdiriləcəkdir.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir.

İmtahanlar test üsulu ilə III ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasında dərslər 15 sentyabrda başlayır, tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir. Akademiyaya qəbul olunmuş kursantlar 14 avqust—13 sentyabr tarixlərdə akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dövlət hesabına yataqxana, geyim forması, təqaüd və yeməklə təmin olunur, təhsil və kurs müddətində həmin akademiyanın ərazisində yerləşən yataqxanada qalırlar.

Ətraflı məlumat www.pa.edu.az internet saytında yerləşdirilmişdir.

Məzunlara "hüquqşünaslıq" ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2017-ci ilin aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən abituriyentlər DİN-in Polis Akademiyasına qəbul edilmirlər.

DİN-in Polis Akademiyasına qəbul üçün namizədlər daimi qeydiyyatda olduqları ərazi üzrə polis idarə və ya şöbələrinə aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

—şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);

—təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);

—yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;

—ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);

—oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;

—9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Ərizə və sənədlərin qəbulu 2017-ci il fevral ayının 1-dən mart ayının 10-dək hər gün (bazar və bayram günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək aparılacaqdır.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**

***(012) 454-12-78,***
***(012) 590-97-76.***

# Elanlar

Qəbələ Bələdiyyəsində işləmək üçün vakant **mühasib vəzifəsinə** müvafiq iş stajına malik ali təhsilli mütəxəssis tələb olunur.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 29 noyabr 1997-ci il tarixli 26 nömrəli qərarı ilə Aydınqışlaq kənd sakini **Hüseynov Eyyub İsa oğluna** verilmiş JN seriyalı 138 nömrəli (kod 40608038) **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 fevral 1999-cu il tarixli 4 saylı qərarı ilə Nic qəsəbə (əvvəlki kənd) sakini **Qəribov Həmdiyə Məhəmmədəli oğluna** verilmiş JN seriyalı 172 nömrəli (kod 40600068) **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.


Redaktor
Varis Yaqubov

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Növbətçi redaktor Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Sifariş № 363